

*Zakir Bağır*

# Düyünlər

## 23 il "Leninçi" indiki "Lənkəran" qəzetinin redaktoru işləmiş şair Şəkər Aslanın xatirəsinə

**(əvvəli ötən saylarımızda)**

Mən maarif şöbəsinin müdirinin yanında oturmuş cavan oğlana baxdım. Məndən beş-altı yaş böyük olardı.

O, ayağa qalxdı. Redaksiyaya göndərilmiş məktubu oxudu: Zaman Səlimov savadsızın biridir. O, rayon qəzetində başqalarının çap etdirdiyi yazıların üzünü götürüb sizə göndərir.

Bu yerdə muxbir başını buladı.

Sadıx müəllim replika atdı:

-Rayon qəzeti və yerli radio verlişləri redaksiyaları üçün yazıları Zaman Səlimov hazırlayır.

Yerdən səslər ucaldı:

-Düzdür.

Muxbir məktubun ardını oxumağa başladı: Zaman Səlimov "Bədən tərbiyəsi" kimi çox oxunan bir jurnalın ştatdankənar muxbiri olmasına layiq deyildir. O, sovet jurnalistikasının qanunlarını pozur. Bir yazını bir neçə redaksiyaya göndərir.

-Yalandır!

-Böhtandır.

Nəhayət, muxbir məktubu oxuyub qurtardı. Açıq müzakirə başladı. Müzakirədən sonra o, qoluma girdi.

-Faktların yalan olduğunu bilirdik. Müzakirə göstərdi ki, redaksiyamız səhv etməyib. Ruhdan düşmə. Bizə tez-tez yaz.

Almanaxda üç oçerkim və ayrıca oçerklər kitabımın çıxması rayona səs salmışdı. Məni təbrik edənlərin sayı artırdı.

Dərslərimi qurtarıb müəllimlər otağına girmişdim ki, telefon səsləndi. Dəsdəyi götürdüm. Genişoğlunun katibəsi idi.

-Sizi yolaş Genişoğlu öz kabinetində gözləyir.

Təəccübləndim. Bu görüşün səbəbini bilməsəm də, getdim. O, məni mehriban qarşıladı. Oturmağa yer göstərdi. Yanaşı əyləşdik. Ərkyana danladı ki, niyə onun yanına getmirəm.

-Əməlli-başlı yazıçı imişsən ki... - deyə mizin üstündəki kitablara işarə etdi.

-Yazıçı yox, jurnalist.

-Hə fərqi var? Kitab yazan yazıçıdır də.

Mübahisə etmədim.

-Heç insafdır, belə qələm əhli haqqında imzasız məktub yazasan? Kim yazıbsa çox nakişi adamdır.

Dinmədim.

-Çox yaxşıdır, rayonumuzda belə cavanlar var. Bəlkə bir ehtiyacın var?

-Çox sağolun. Heç nəyə ehtiyacım yoxdur.

-Bir az səbr elə, ştat açılan kimi sənə redaksiyada iş verərəm. Nəzərimdəsən.

Araya sükut çökdü. Sükutu mən pozdum:

-İcazə verin, gedim.

-Buyur, buyur.

...Aradan bir müddət keçdi. "Bədən tərbiyəsi" juenalının redaktoru İmran müəllimin dəvəti ilə Bakıya getdim.

-Jurnalımıza təzə ştat veriblər, - deyə o, sözə başladı. Zona muxbiri. Sən çoxdandır bizimlə əməkdaşlıq edirsən. İdman komitəsi də, redaksiyamız da bu vəzifədə işləməyə səni məsləhət biliblər. İndi sənin fikrini bilmək istəyirəm.

Nə deyəcəyimi bilmədim. Sevincimdən udquna-udquna güclə dedim:

-Çalışacağam mənə göstərdiyiniz etimadı doğruldum.

Redaksiyadan bəzi tapşırıqlar alıb rayona qayıtdım. İşləyəcəyim zonaya bizim rayon da daxil idi. Qatar gah surətlə gah da astaca gedirdi. Gecədən xeyli keçirdi. Yuxum ərşə çəkilmişdi. Heç bir ay deyildi ki, "Bədən tərbiyəsi" jurnalının zona muxbiri kimi əmək fəaliyyətinə başlamışdım. İndi redaksiyamıza göndərilmiş imzasız məktubun izi ilə ezamiyyətə gedirdim.

...Toxumçuluq üzrə ixtisaslaşmış 1 May sovxozu iki böyük kəndi əhatə edirdi.

Burada minə yaxın fəhlə və qulluqçu çalışırdı. Aralarında idman həvəskarları çox idi. Bir neçə il bundan qabaq sovxozun əhatə etdiyi kəndlərin birində idman meydançası salınmışdı. Əlbətdə həvəskarların iştirakı ilə iməclik yolu ilə.

İlk addım sevindirici idi. Lakin meydançanın salınması ilə hər şey bitdi.

Belə böyük savxozda idman zalı yox idi. Dərəcəli idmançılardan, qızların bu mühüm sahəyə cəlb edilməsində danışmağa belə dəyməzdi. Guya sovxoz rehbərliyi 1600 manatlıq avadanlıq almışdı. Bəs avadanlığı harada qoymuşdular? Məlum deyildi. Belə bir sovxozda onuncu sinifi bitirmiş Məhəmməd adlı bir nəfərin idman metodisti işlədiyini biləndə təəcübləndim. Məgər ali təhsilli və texnikumu bitirən kadr yox idimi?

**Povest**

Jurnalımızın ştatdankənar muxbiri Rəcəb Eldarovun yazdığı tənqidi məqalədəki faktlar düzgün idi. Bəs redaksiyamıza göndərilmiş məktubun yazılmasına səbəb nə idi? Rayon mərkəzinə-idman komitəsinə yollandım. Komitənin sədri mənimlə köhnə dost kimi görüşdü.

-Zaman müəllim, - dedi - gələndə bildirəydiz sizi qarşılayardıq.

-Siz rayona gəlmiş bütün jurnalistləri qarşılayırsınız?

Komitənin sədri tutuldu, cavab verməyə söz tapmadı.

Məhsulkənd könüllü idman cəmiyyəti rayon şurasının sədri Dadaşəli içəri girdi.

Mən redaksiyamıza göndərilmiş məktubu çıxartdım. Birini idman komitəsinin sədri Valehliyə göstərdim.

-Siz yazmısınız?

-Bəli

-Səbəbini bilmək olar?

Valehli bir müddət dinmədi.

-Zaman müəllim, səhvimizi düzəltmək istəyirik.

Bunu məktubda yazmısınız. Redaksiyamız bilmək istəyir ki, məktubun yazılmasına səbəb nədir?

Dadaşəli bildirdi:

-Rəcəb Eldarov rüşfətxordur

-Kimdən rüşfət alıb?

Dadaşəli sözünə düzəliş verdi:

-Almayıb, istəyib.

-Kimdən?

-"1 May" sovxozunun idman metodistindən.

-Niyə?

-Onlara qorxu gəlib ki, əgər pul verməsəniz sizin sovxozdan tənqidi məqalə yazacağam.

-Məgər "1 May" sovxozunda idman işləri yaxşı qurulub?

-Əlbəttə. İdman meydançası var. Dərəcəli idmanşıların sayı çoxdur. İdman zalı tikilib...

Dadaşəli otaqdan çıxdı otağından bir qovluq gətirdi:

-Baxın, "1 May" sovxozunun metodistinin verdiyi hesabatdır. Respublikaya göndərmişik. İstəsəniz sovxoza gedərik, hər yerlə tanış olrsınız.

İkinci məktubu göstərdim:

-Sizcə buradakı faktlar düzgündürmü?

Komitənin sədri ilə şuranın sədri xorla dilləndilər:

-Əlbəttə, lazımdırsa "1 May" sovxozunun idman metodistini və sovxoz direktorunu da çağıraq?

-Çağırın! Rəcəb Eldarovda gəlsə yaxşıdır.

-Onu da çağırarıq, - Rayon idman komitəsinin sədri haraya isə zəng etdi.

Mən siqaret çıxarıb yandırdım. Heç on-on beş dəqiqə keçməmiş sovxoz direktoru və idman metodisti içəri girdilər. Onlar məni görən kimi özlərini itirdilər. Heç nə başa düşməyən Valehli məni onlarla taanış etdi:

-"Bədən tərbiyəsi" jurnalının zona mubiri...

Sədrin sözü ağzında qaldı.

Sovxoz direktoru bildirdi:

-Biz artıq tanışıq. Jurnalist bu gün səhər sovxozumuza gəlmişdi. İdman işləri ilə maraqlanırdı.

Yenə Dadaşəli ilə Valehli xorla dedilər:

-Tək?

-Məgər tək getmək olmaz?

Onlardan cavab gəlmədi. Bu an Rəcəb Eldarovda içəri girdi. Xeyli arıqlamışdı.

Mən təzədən hər iki məktubu onlara göstərdim.

-Sizin fikrinizi bilmək istəyirik.

Əgər sovxozun idman həyatında nöqsan varsa, Rəcəb Eldarov onu düzgün tənqid edirsə, niyə rüşvət almalıdır?

Ortaya sükut çökdü. Nəhayət, sovxoz direktoru vəziyyətdən çıxmaq istədi:

-Rəcəb Eldarov bizdən acığını çıxıb. Anası idarəmizin süpürgəcisi idi. İxtisara düşdü. O da...

Mən qeyd dəftərimi çıxartdım və oxumağa başladım:

-Rəcəb Eldarovun "1 May" sovxozunda idman həyatından yazdığı tənqidi məqaləsi jurnalımızın yanvar nömrəsində dərc olunmuşdur. Anası isə mart ayında ixtisara düşmüşdür. O, sizdən necə acıq çıxa bilərdi?

Cavab gəlmədiyini görüb davam etdim:

-Axı süpürgəçi necə ixtisara düşə bilərdi? Bəlkə sovxoz idarəsinə süpürgəçi lazım deyil? Bəs niyə idman metodistinin anasını işə götürmüsüz?

Sovxoz direktoru başını aşağı dikdi.

Məsələ aydın idi. Rəcəb Eldarov "1 May" sovxozunun idman işini ciddi tənqid etmişdi. Bu isə bəzi adamların xoşuna gəlməmişdi. Nəticədə bu əhvalat baş vermişdi.

...Jurnalımızda "İnadkarlıq" adlı felyotonumun çıxması rayona bərk səs salmışdı.

Telefon zəng çaldı. Dəstəyi götürdüm. Sadıq müəllim idi.

-Əhsən yaxşı yazmısan. Amma ehtiyatlı ol Genişoğlundan özünü gözlə.

-Felyetonun ona nə dəxli? - Təəccüblə soruşdum.

-Bir qədər səbr et hər şeyi bilərsən.

Heç nə başa düşmədim.

Sonra Səyyad Rüstəm zəng etdi:

-Çoxdan idi rayonumuzdan yoldaş, - istehza ilə deyirdi, - Genişoğlundan belə yağlı felyeton yazılmamışdı.

Xalis də məni təbrik etdi.

-Yaxşı yazmısan. Şir ürəyi yemisən, nədi? Genişoğlunu tənqid etmək hər oğulun işi deyil.

Bir neçə gündən sonra hər şey mənə bəlli oldu.

Muxbir məntəqəsindəki iş otağımda oturub yazı hazırlayırdım. Qapı döyüldü.

-Gəlin!

Genişoğlu içəri girdi. Gözlərimə inanmadım. Gün hardan çıxıb ki, Genişoğlu məni yad edir?

-Oturun.

Amma o, göstərdiyim yerə yox mənimlə yanaşı oturdu.

Həmişə mənə sən deyə müraciət edən Genişoğlu indi qardaşoğlu deyirdi.

-Hə, qardaşoğlu gərək yazmayaydın o felyetonu. Mənimlə məsləhətləşəydin. Hər şey yaxşı qurtardı. İndi gəl tədbir gör. Nəticəni redaksiyaya göndər. Özündə bu rayonda anadan olmusan. Evin nöqsanını başqalarına göstərmək nə dərəcədə doğrudur? Bilirsən ki, rayonumuza təzə katib gəlib...

-Demək bura mənim doğulduğum rayon olduğu üçün nöqsanlara göz yummalıyam? Rayonda isə bildiklərini eləsinlər?

Genişoğlu bir qədər əsəbiliklə dedi:

-Elə tənqid etmək sənə qalmışdı?

-Mən tənqid etməsəm, o nöqsanları göstərməsəm bəs kim deməlidir?

Deyəsən, Genişoğlunun məqsədi başqa idi.

-Qardaşoğlu, mən sənin üçün deyirəm. Düşərsən imzasız məktub yazanların qələminə. Onsuz da rayonumuzda imzasız məktub yazmaq dəbdir.

-Cinayətkar cəzalanır. İmzasız məktub yazanlar niyə cəzalanmırlar?

Genişoğlu sualıma cavab vermədi:

-Qardaşoğlu sənin yanına mübahisə etməyə gəlməmişəm. Bu boyda rayonun idmanına mən cavabdehəm. Bir yerdə işləməli olacağıq. Bundan sonra hansı idarədən yazacaqsan, məsləhətləş mənimlə. Məsləhətli Don gen olar deyiblər. Bir də "1 May" sovxozunu çıxart yadından. Fərz et ki, Günəşli rayonunda belə sovxoz yoxdur.

Genişoğlu getdi.

...Poçtalyon zərfi mənə uzatdı.

-Şəxsən sizin adınıza göndəriblər. "Bədən tərbiyəsi" jurnalının zona muxbiri Zaman Səlimov yol...

**(ardı növbəti sayımızda)**